*MAİS ƏMRAHOV*

*Qələbənin 65 illiyinə*
*həsr olunur*

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ

# 1939–1945

Bakı – MÜTƏRCİM – 2010

- 17196 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

63.3(0)62+63.3(2)62+63.3(5Azə)62
Ə 74

*Azərbaycan MEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.*

**Elmi redaktoru:** ***C.Ə.Bəhramov,*** Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix ixtisası üzrə fəlsəfə doktoru, professor

**Redaktor:** ***S.M.Mustafayeva,*** tarix ixtisası üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** ***O.B.Sultanov,*** tarix elmləri doktoru, professor
***X.S.Köçərli,*** tarix elmləri doktoru, professor
***M.N.Salahov,*** tarix elmləri doktoru, professor

**Əmrahov M.İ. İkinci Dünya müharibəsi. 1939-1945.**
– Bakı: Mütərcim, 2010. – 552 səh.

*Monoqrafiyada Hitler Almaniyası tərəfindən Qərbi Avropanın işğal edilməsi, İkinci Dünya müharibəsi ərəfəsində və müharibə illərində yol verilmiş səhvlər və hesablamalar nəticəsində baş verən insan itkisi, əsirlərin taleyi və xalqların deportasiyası məsələləri çoxsaylı sənədlər və ədəbiyyat əsasında izah olunmuşdur. Monoqrafiyada Azərbaycanın müharibədə iştirakı, qələbədəki payı arxiv materialları, dövri mətbuat, statistik külliyyatlar və ədəbiyyat əsasında işıqlandırılmışdır.*

*Monoqrafiya geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Ondan ali və orta ixtisas məktəblərinin müəllim və tələbələri, magistlər, yenidənhazırlanma fakültəsinin dinləyiciləri, İkinci Dünya müharibəsi tarixinin tədqiqatçıları, həmçinin elmi yaradıcılıqla məşğul olanlar və orta ümumtəhsil məktəblərinin müəllimləri faydalana bilərlər.*

A $\frac{0505030202}{026}$ 41-10

© M.Əmrahov, 2010

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

***Ancaq indi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin.***
***Əgər bunu bilməsə o, həqiqi vətəndaş ola bilməz.***
***Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz.***
***Əgər bunu bilməsə o, millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz.***

***Heydər ƏLİYEV***

## MÜNDƏRİCAT

GİRİŞ ........ 8

**Birinci HİSSƏ**
**BÖYÜK MÜHARİBƏ. 1939 -1945**

I f ə s i l. İkinci Dünya müharibəsi tarixi Qərb və sovet tarixşünaslığında ........ **14**

II f ə s i l. XX əsrin 20-ci illərinin axırları və 30-cu illərdə dünyanın siyasi mənzərəsi ........ **30**
2.1. Versaldan imtina ........ 30
2.2. İctimai inkişaf yollarının axtarışı. Faşizmin ikinci dalğası və onun nəticələri ........ 32
2.3. İkinci Dünya müharibəsi ərəfəsi və müharibənin başlanması şəraitində dünyanın siyasi mənzərəsi ........ 43
2.4. Mancuriyada, Xasan gölü ətrafında və Xalxin-Qol çayı yaxınlığında qüvvələrin sınağı ........ 46
2.4.1.Xasan gölü rayonunda döyüşlər ........ 49
2.4.2. Xalxin-Qol döyüşü ........ 51
2.5. Münhen sövdələşməsi. Çexoslovakiyanın işğalı ........ 53
2.6. Tokio fəallaşır ........ 57
2.7. Dünya Münhendən sonra ........ 60

III f ə s i l. İkinci Dünya müharibəsinin başlanması ........ **62**
3.1. İkinci Dünya müharibəsini doğuran səbəblər və müharibənin dövrləşdirilməsi ........ 62
3.2. Almaniyanın Polşaya hücumu. İkinci Dünya müharibəsinin başlanması. «Qəribə müharibə» ........ 63
3.2.1. Danimarka və Norveçin işğalı (9 aprel-10 iyun 1940-cı il) ........ 69
3.2.2. Fransanın darmadağın edilməsi (10 may-22 iyun 1940-cı il) ........ 74
3.2.3. İngiltərə uğrunda döyüş (12 avqust 1940-cı il-1 may 1941-ci il) ........ 84
3.2.4. Balkan dövlətləri İkinci Dünya müharibəsinin ilk mərhələsində. Yuqoslaviya və Yunanıstanın işğalı (28 oktyabr 1940-cı il-23 aprel 1941-ci il) ........ 88

IV f ə s i l. İkinci Dünya müharibəsinin başlanmasının ilk dövründə Sovet İttifaqının xarici siyasət xətti ........ **95**
4.1. 1939–1940-cı illərdə Sovet İttifaqının ərazilərini genişləndirməsi ........ 95
4.2. Sovet-fin müharibəsi. (30 noyabr 1939-cu il–12 mart 1940-cı il) ........ 103
4.3. Ərəfə. 1940 -1941-ci illərdə sovet-alman münasibətlərinin kəskinləşməsi ........ 108

V f ə s i l. Böyük müharibənin döyüş cəbhələrində ........ **121**
5.1. Hesablamalar və səhvlər. 1941-ci il faciəsi ........ 121
5.2. Əsaslı dönüşə doğru ........ 129

5.3. Krım faciəsi ... 130
5.4. Kursk döyüşü (5 iyul-23 avqust 1943-cü il). Müharibədə əsaslı dönüşün başa çatdırılması ... 134
5.5. Tehran konfransı ... 136
5.6. Qələbənin dadı ... 153
5.7. Krım konfransı ... 156
5.8. 1945-ci il. Berlinin alınması ... 171
5.9. Potsdam konfransı ... 180
5.10. İkinci Dünya müharibəsinin başa çatması ... 196
5.11. Totaltar rejimin qurbanları ... 202

VI fəsil. İkinci Dünya müharibəsinin sərkərdələri. Qaliblər və məğlublar ... 209

VII f ə s i l. Siyasi portret ... 279
7.1. Hitler və Stalin ... 279
7.2. Stalin və Ruzvelt ... 306
7.3. Stalin və Çerçil ... 313

VIII f ə s i l. Müttəfiqlərin köməyi ... 322

## İKİNCİ HİSSƏ
## QƏLƏBƏNİN QİYMƏTİ

I fəsil. Müharibə illərində insan itkisi haqqında ... 331

II fəsil. Əsirlərin taleyi ... 335

III fəsil. Xalqların deportasiyası ... 349

## ÜÇÜNCÜ HİSSƏ
## AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

I fəsil . İkili yanaşmanın acı nəticəsi ... 361
1.1. Tərəflər, niyyətlər və maraqlar ... 361
1.2. Bakı nefti Qərb dövlətlərinin hərbi - strateji planlarında ... 364
1.3. Sovet - alman cəbhəsində Bakı nefti uğrunda mübarizə. Qafqazın müdafiəsinin möhkəmləndirilməsi ... 369
1.4. Döyüş meydanlarında ... 377
1.5. Azərbaycan diviziyaları ... 390
1.6. Arxa cəbhədə ... 397
1.7. Milli-azadlıq hərəkatı ... 400
1.8. 1945–1946-cı illərdə Cənubi Azərbaycanda milli-demokratik hərəkat ... 403

II fəsil. Azərbaycan mədəniyyəti İkinci Dünya müharibəsi illərində ... 413
2.1. Müharibənin başlanması və yeni şəraitə uyğun olaraq ideya-siyasi işin təşkili ... 413
2.2. Kütləvi informasiya vasitələri düşmənə qarşı mübarizədə ... 419



2.3. Nəşriyyat işinin vəziyyəti və kitab çapı ... 422
2.4. Azərbaycan radiosu müharibə dövründə ... 424
2.5. Xalq maarifi ... 428
2.6. Təhsil işçiləri ön və arxa cəbhədə ... 436
2.7. Elm cəbhənin xidmətində. İçtimai elmlər müharibə illərində ... 446
2.8. Səhiyyə ... 452
2.9. Mədəni-maarif müəssisələri ağır sınaq dövründə ... 456
2.10. Ədəbiyyatda hərbi-vətənpərvərlik mövzusu ... 461
2.11. Musiqi ... 466
2.12. Rəssamların yaradıcı lığında müharibə mövzusu ... 472
2.13. Kino sənəti ... 476
2.14. Azərbaycan teatrları müharibə illərində ... 480

NƏTİCƏ ... 487

ƏDƏBİYYAT ... 490

Əlavələr ... 503
Əsas hadisələrin xronologiyası ... 503
Cədvəllər ... 508
Xəritələr ... 520
İkinci dünya müharibəsinin sərkərdələri ... 526

*«Hətta ağılsızlar belə müharibə istəyən olmamalıdır. Çünki dinclik olanda atalar övladlarının çiynində aparılaraq dəfn edilirlər, müharibə olduqda isə atalar övladları dəfn etməli olurlar.»*

*(Herodot)*

# GİRİŞ

XXI əsr təkcə özünün yeni siyasi, iqtisadi və mənəvi abhavası ilə deyil, həm də özündən əvvəlki yüzilliklərlə müqayisədə bir çox yenilikləri ilə zəngindir. XX əsrin sonlarında 70 ildən çox SSRİ adlı bir «super dövlətin» əsarətində qalan xalqlar öz torpaqlarının əsl sahibi olaraq milli müstəqillik qazandılar və XXI əsrə müstəqil dövlətlər kimi qədəm qoydular. Tarixə çevrilmiş SSRİ adlı böyük dövlətdən qalan dəfinədən müstəqillik qazanmış xalqların bir qrupu faydalandılar, bir qrupuna isə «münaqişələr ocağı» miras qaldı. Çox təəssüf ki, varislərə qalan dəfinədən səmərəli istifadə olunmadı, «köhnəliyin qalığıdır», «sovet imperiyasının yadigarıdır» deyə heykəllər uçuruldu, rəsm əsərləri yandırıldı, məzmunu, problematikası, ən vacibi isə, gələcək nəsillərin həyatındakı rolu düşünülmədən minlərlə əsər kitabxana fondlarından çıxarıldı, oxucularından məhrum edildi. Fərqinə varılmadı ki, qədim əşyalar, abidələr, tarixi binalar, sənədlər bizim tariximiz, bizim iftixarımızdır. Bu tarixi öyrənmək, nəsillərə ötürmək vacibdir. Belə tarixlərdən biri də, İkinci Dünya müharibəsinin tarixidir.

Müstəqillik illərində Vətən tarixinə, o cümlədən Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı tarixinə yenidən nəzər salındı. Çünki bu tarix yurdundan – yuvasından didərgin salınmış millətlərin faciəli həyat tarixidir. Soykökünə «vətən xaini» damğası vurulmuş, vətən həsrəti ilə qəriblikdə yaşayan və dünyasını dəyişən, nəşinin vətənində dəfninə icazə verilməyən minlərlə insanın niskilli tarixidir. «Vətən uğrunda», «Stalin uğrunda» deyərək ölümə gedən, əslində faşizmə qarşı döyüşən Azərbaycan igidlərinin həyat salnaməsidir. «Hər şey cəbhə üçün, hər şey qələbə üçün» şüarına tabe olaraq gecə - gündüz işləyən,



malını, pulunu, yorğanındakı yununu, hətta nişan üzüyünü cəbhəyə verən Azərbaycan qadınının tarixidir.

Azərbaycan tarixi, onun mühüm problemlərindən olan Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı tarixi, faşizm üzərində qələbədə xalqımızın payı ümummilli lider Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. İki əsrin görkəmli siyasi və dövlət xadimi olan H.Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan tarixinin bir sıra problemləri yenidən işlənməyə başlanmışdır. H.Əliyev tələb edirdi ki, Azərbaycan tarixi ümumdünya tarixi kontekstində işlənilməlidir. O tarixin təhrif edilməsinin əleyhinə olmuş və tələb etmişdir ki, tarixin qara səhifələri unudulmamalıdır. Ulu öndər xüsusilə Azərbaycanın 70 illik sovet dövrü tarixinin təhrif edilməsi əleyhinə olmuşdur. H.Əliyev dəfələrlə xatırlatmışdır ki, "70 illik sovet dövründə dünya tarixi, o cümlədən Azərbaycan tarixi, habelə keçmiş Sovetlər İttifaqının ərazisində yaşayan digər millətlərin tarixi təhrif edilib. Ona görə də, "tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır, tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri də unutmaq olmaz".

1993-cü ildə ziyalılarla görüşündə H.Əliyev qeyd etmişdir ki, tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır... Dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, həqiqi vətəndaşlıq hissini, azərbaycançılıq hissini yüksəldərik.

Harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq böyük öndər müxtəlif dönəmlərdə bu problemə birtərəfli yanaşılmasından, keçmiş sovetlər birliyi xalqlarının, xüsusilə Azərbaycan xalqının faşizm üzərindəki qələbədəki rolunun azaldılmasından narahat olmuşdur.

Heydər Əliyev demişdir: «Xalqımız çoxəsrlik tarixində qəhrəmanlıq nümunələri, cəsurluq nümunələri göstəribdir, öz azadlığı uğrunda mübarizə aparıbdır. Ancaq zaman-zaman, tarixin cürbəcür mərhələlərində məğlubiyyətə də uğrayıbdır, bəlalara da düşübdür, faciəli dövrlər də keçiribdir».

Ulu öndəri narahat edən məsələnin – Azərbaycanın faşizm üzərindəki qələbədəki payı hələ 70-80-ci illərdə öyrənilməyə başlanmış, onun diqqət və qayğısı nəticəsində odlu illərin salnaməsi – «Azərbaycan SSR Böyük Vətən müharibəsi dövründə (1941-

1945-ci illər) «sənədlər və materiallar» məcmuəsinin 1976-ci ildə I cildi, 1977-ci ildə II cildi işıq üzü görmüş, «Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində» adlı kollektiv əsər yazılmışdır.

Ümummilli lider keçmiş sovetlər birliyinin müxtəlif şəhərlərində azərbaycanlıların şərəfinə abidələr ucaldılmasına xüsusi diqqət yetirmişdir. 1941-1945-ci illər müharibəsində azərbaycanlılardan ibarət 416-cı diviziyanın qəhrəmanlığını əbədiləşdirmək üçün Taqanroq şəhəri yaxınlığında əzəmətli memorial yaradılmış, H.Əliyev həmin memorial kompleksin açılışında iştirak etmiş və tarixi nitqlərindən birini söyləmişdir.

H.Əliyevin qayğısı və diqqəti nəticəsində Kerçdə, Krımda həlak olmuş azərbaycanlıların şərəfinə Simferopolun Sapun dağında 77-ci Simferopol atıcı diviziyasının xatirəsinə kompleks ucaldılmışdı. Bu kompleksi ziyarət edən hər bir şəxs Azərbaycan övladlarının faşizmə qarşı mübarizədəki mərdliyi, şücaəti qarşısında baş əyir.

Ümummilli lider H.Əliyevin hakimiyyətə qayıdışı ilə müharibə veteranlarına göstərilən qayğı yenidən gündəmə gəlmişdi. Bunun başlıca səbəblərindən biri 1990-1992 illərdə tariximizin bu dövrünün təhrif edilməsinə, müharibə iştirakçılarının qəhrəmanlığına, onların ailə üzvlərinə göstərilən saygısızlıq, müharibə veteranlarına olan güzəştlərin ləğv edilməsi, «Sən rusa satılmısan, rus torpağı uğrunda vuruşmusan» deyərək veteranların təhqir edilməsi, bir sözlə Azərbaycan xalqının faşizmə qarşı mübariz tarixinə hörmətsiz yanaşılması idi. H.Əliyev 1996-cı il may ayının 9-da alman faşizmi üzərində qələbənin 51-ci ildönümü münasibətilə Həzi Aslanov adına Bakı Ali Ümumqoşun komandirləri məktəbində müharibə veteranları ilə görüşündə tariximizin bu dövrünə münasibət bildirərək demişdir: «Qələbənin 50 illiyi münasibətilə Moskvada keçirilən təntənəli mərasimlərdə dünyanın ən böyük dövlətlərinin başçılarının hamısı iştirak edirdi. İndi görün, bunun nə qədər böyük ümumdünya əhəmiyyəti var. Ona görə də, bu hadisəni unutmaq, yaxud onu üstündən xətt çəkmək, ona siyasi qiymət vermək – bunu kim edə bilər? Buna heç bir nəslin ixtiyarı yoxdur. O ki qaldı 1990, 1991, 1992-ci illərdə Azərbaycanda mövcud olan adamlara, onların danışmağa heç bir haqqı yoxdur. Onların hansı mənəvi haqqı var? Azərbaycanın bu qədər tarixini silmək, pozmaq mümkün deyil. Mən bunları təkcə sizə görə demirəm. Bəs cəbhədən qayıtmayan 300 min insanın xatirəsi? 1945-ci ildən indiyədək dünyasını dəyişmiş müharibə iştirakçıları? O illərdə Azərbaycanın xalq təsərrüfatını, iqtisadiyyatını işlədən, yaradan, respublikamızın neft mədənlərində gecə-gündüz çalışan və bu məhsulu əzab-əziyyətlə cəbhəyə göndərən insanlar? Bu qələbənin bəşəri nöqteyi-nəzərdən siyasi mənası nə qədər böyükdür» (5, 1996, 10 may).

Ulu öndər dəfələrlə qeyd etmişdir ki, alman faşizminə qarşı döyüşlərdə qəhrəmanlıq göstərmiş Həzi Aslanovun, İsrafil Məmmədovun, Qafur Məmmədovun, Hüseynbala Əliyevin və minlərlə belə oğulların igidlikləri gənclərimiz üçün nümunə olmalıdır.

Bu gün H.Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışının sonrakı hər bir ilini səhifələyəndə faşizm üzərində qələbənin ildönümünün ildən-ilə daha təntənəli, daha məzmunlu qeyd olunduğunun şahidi oluruq. Elə bu qayğı və diqqətin, xalqın tarixinə şəxsiyyət münasibətinin nəticəsi idi ki, Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Bu çox böyük şücaət, xalqın tarixinə hörmətin misilsiz nümunəsidir.

9 may 1997-ci ildə II Dünya müharibəsində alman faşizmi üzərində qələbənin 52-ci ildönümü münasibətilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarı önündə keçirilən nitqində H.Əliyev demişdi: «Tarix bunu heç vaxt unutmayacaqdır. Biz həmişə fəxr etmişdik, bu gün də fəxr edirik və gələcək nəsillər də fəxr etməlidir. Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olubdur... Azərbaycan xalqının xidməti misilsiz, əvəzsiz, tarixidir» (5, 1997, 10 may).

H.Əliyevin müharibə tarixinə diqqəti, Azərbaycan xalqının qələbədəki payı, dövlət rəhbərləri, hərbçilər və sənət adamları tərəfindən yüksək qiymətləndirilmişdir. 1997-ci ilin may ayında Rusiyanın 40-a yaxın məşhur hərbçisinin və sənət adamının Heydər Əliyevin adına göndərdikləri müraciətdə deyilirdi: "Bu bayram günündə biz yada salırıq ki, sizin sayənizdə tarixi ədalət bərpa edilmişdir və 9 may günü Azərbaycanda yenidən qələbə günü kimi qeyd olunur.

Biz onu xatırlayırıq ki, faşizm üzərində qələbə kimi ümumi işə Azərbaycan xalqı özünün çox böyük və misilsiz töhfəsini ver-

**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**

